

# MÖHTƏŞƏM 20 İL 2003 2023

**Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyalarını ümummilli mənafelərimizə söykənən meyarlarla zənginləşdirərək 20 illik çağdaş tariximizə zəfər dolu şanlı səhifələr yazan möhtərəm Prezidentimiz İlham Əliyevin uğurla həyata keçirdiyi islahatlar ölkəmizin iqtisadi təhlükəsizliyinin təmin edilməsində, onun beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsində əhəmiyyətli rol oynayan gömrük sisteminin də inkişafına münbit şərait yaratmışdır.**



# İlham Əliyevin islahatlar strategiyasının real nəticələri

## Dövlət Gömrük Komitəsi iqtisadi inkişafa mühüm töhfə verir

Müstəqilliyimizin ilk illərində bütün sahələrdə yaranan durğunluq Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra dinamik inkişafla əvəz olundu. Hələ 1997-ci ildə, gömrük orqanlarının yaradılmasının 5 illiyinə həsr olunmuş görüşdə dahi rəhbər proqram xarakterli çıxışı ilə gömrük orqanları qarşısında strateji vəzifələr qoydu, gənc respublikamızın iqtisadi təhlükəsizliyinin təmin olunması baxımından müstəqil gömrük siyasətinin əsas konturlarını və inkişaf istiqamətlərini müəyyənləşdirdi. Ulu Öndər dünya gömrük ailəsinə layiqli üzv olmağı, müvafiq avadanlıqlarla təchiz olunmuş müasir sərhəd-buraxılış məntəqələrinin yaradılmasını, gömrük qanunvericiliyimizi beynəlxalq hüquq normalarına uyğunlaşdırmağı, elektron qaydada bəyanetmə sisteminin yaradılmasını və bütün bunları idarə edəcək peşəkar gömrük mütəxəssislərinin yetişdirilməsi üçün kadr hazırlığı sisteminin qurulmasını strateji hədəf olaraq müəyyən etdi. Ölkəmizin gömrük xidməti bu strateji hədəflərə müntəzəm ardıcıllıqla nail olmağa başladı.

Ötən dövr ərzində Dövlət Gömrük Komitəsi qarşıya qoyulmuş vəzifələri yerinə yetirmək məqsədilə gömrük inzibatçılığının normativ-hüquqi bazasının təkmilləşdirilməsi, mal və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi prosesinin sadələşdirilməsi, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin, o cümlədən tranzit yük daşımalarının artırılması, çevik idarəetmə sisteminin tətbiqi, şəffaf biznes mühitinin formalaşması, məmur-sahibkar təmasının minimuma endirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirmişdir.

Möhtərəm Prezident İlham Əliyevin 2003-2023 illəri əhatə edən 20 illik rəhbərliyi dövründə gömrük orqanlarında müasir texnologiyaların tətbiqi, gömrük əməkdaşlarının potensialının gücləndirilməsi, sərhəd-buraxılış məntəqələrində infrastrukturun dünya standartları səviyyəsində yenidən qurulması siyasəti uğurla davam etdirilmişdir. Dövlət başçısının uzaqgörən siyasətinin, ali diqqət və qayğısının nəticəsi olaraq, tarixi İpək yolu üzərində yerləşən müstəqil Azərbaycan Respublikası beynəlxalq ticarət zəncirinin mühüm həlqələrindən biri kimi "Şimal-Cənub", "Şərq-Qərb" dəhlizləri vasitəsilə yüklərin səmərəli və vaxtında daşınmasında mühüm rol oynayır. Hazırda dünyada gedən qloballaşma prosesinin fonunda ölkələri, beynəlxalq təşkilatları düşündürən vacib məsələlərdən biri beynəlxalq ticarət zəncirinin davamlılığının, intensivliyinin təmin olunması və asanlaşdırılmasıdır.

Respublikanın iqtisadi-ticarət əlaqələrinin coğrafiyasının ildən-ilə genişlənməsi, həmçinin idxal-ixrac əməliyyatlarının həcminin durmadan artması, Azərbaycanın beynəlxalq iqtisadi sistemə inteqrasiya prosesi gömrük işi sahəsində qabaqcıl təcrübə və ölkəmizin qoşulduğu beynəlxalq konvensiyaların müddəaları nəzərə alınmaqla bütövlükdə gömrük qanunvericiliyinin təkmilləşdirilməsini, o cümlədən bu sahədə mühüm olan Gömrük Məcəlləsinin qəbul edilməsini zəruri etmişdi. Artıq Azərbaycan Respublikasının gömrük qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi, eləcə də gömrük işi sahəsində beynəlxalq standartların öyrənilməsi və onların tətbiq edilməsi işinin davam etdirilməsi, Avropa İttifaqının "Yeni Qonşuluq Siyasəti" çərçivəsində 2006-cı ildə qəbul edilmiş "Azərbaycan-Avropa İttifaqı Fəaliyyət Planı"nın "Azərbaycan gömrük xidmətinin fəaliyyətinin təkmilləşdirilməsi" ilə bağlı müddəalarının yerinə yetirilməsi, həmçinin "Gömrük prosedurlarının sadələşdirilməsi və uzlaşdırılması haqqında" Beynəlxalq Konvensiyanın müddəalarının (Kioto Konvensiyası) və Ümumdünya Gömrük Təşkilatının "Beynəlxalq Ticarətin Asanlaşdırılması və Təhlükəsizliyi üzrə Çərçivə Standartları"nın milli gömrük qanunvericiliyində əks etdirilməsi məqsədilə 2011-ci il 24 iyun tarixli 164-IVQ nömrəli Azərbaycan Respublikasının Qanunu - yeni Gömrük Məcəlləsi qəbul edilmişdir.

Təsadüfi deyil ki, ümumdünya gömrük ailəsinin mötəbər üzvü olan Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə Ümumdünya Gömrük Təşkilatının Brüssel şəhərindəki iqamətgahının qarşısında Dədə Qorqud abidəsi ucaldılmış, abidənin 18 may 2004-cü ildə keçirilən açılışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak etmişdir.

24 saat fasiləsiz hüquq-mühafizə fəaliyyəti göstərən gömrük əməkdaşlarının sağlamlıq vəziyyətinin müəyyən edilməsi, gömrük əməkdaşlarının tibbi xidmətə ehtiyaclarının ödənilməsi və tibbi təminatının yaxşılaşdırılması məqsədilə 2008-ci il dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə Mərkəzi Gömrük Hospitalının açılış mərasimi keçirilmişdir. Mərkəzi Gömrük Hospitalı ölkəmizin ən peşəkar tibb müəssisələrindən biri olduğunu 2020-ci ildə baş verən koronavirus pandemiyası zamanı sübut etmiş, xeyli sayda insanın həyati təhlükəsini aradan qaldırmışdır.

Məlumdur ki, peşəkar gömrükçü heyəti yaratmadan mütərəqqi gömrük inzibatçılığını təmin etmək mümkün deyil. Məhz bu məqsədlə, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 24 yanvar tarixli 1972 nömrəli sərəncamı ilə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası yaradılmışdır. Ölkəmizin strateji hədəflərinə uyğun təhsil verməyi, yüksəkixtisaslı gömrükçü yetişdirməyi, millətimizə, dövlətçiliyimizə, milli-mənəvi dəyərlərimizə sahib olan, gömrükçü adını uca tutan şəxsiyyətlər formalaşdırmaq Dövlət Gömrük Komitəsinin Akademiyasının qarşısına qoyulmuş və bu onun şərəflə yerinə yetirdiyi vəzifələrdəndir.

Dövlət Gömrük Komitəsinin Akademiyasında keyfiyyətli mütəxəssis hazırlığı üçün müasir standartlara cavab verən maddi-texniki baza yaradılmış və daim təkmilləşdirilməkdədir. Mütəxəssis hazırlığında inkişaf etmiş ölkələrin aparıcı elm və tədris mərkəzlərinin təcrübəsindən istifadə edilir. Gömrük Akademiyası ölkəmizin qabaqcıl ali təhsil müəssisələrinin, həmçinin gömrük universitetlərinin beynəlxalq şəbəkəsində layiqli yer tutmaqdadır.

Bazar iqtisadiyyatına keçid dövrünü yaşayan ölkələrdə olduğu kimi, Azərbaycanda da sahibkarlığın inkişaf prosesi çətin və ağır yol keçmişdir. Ölkə rəhbərliyi tərəfindən sahibkarlığın inkişaf etdirilməsi, ona normal şərait yaradılması daim diqqət mərkəzində saxlanılmış, gömrük orqanları bu prosesdən kənarda qalmamışdır.

2003-2023-cü illərdə dövlət idarəetmə sistemlərinin inkişafı üçün cənab Prezidentin qəbul etdiyi silsilə qərarlarla ölkə iqtisadiyyatının dövlət idarəetmə sisteminin və onun vacib tərkib hissəsi olan gömrük sisteminin dayanıqlı inkişafını təmin edən mühüm icra göstərişləri müəyyən edilmişdir.

Belə ki, dövlət başçısının 2 avqust 2006-cı il tarixli 1583 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına üzv olması prosesi ilə əlaqədar qanunvericiliyin Ümumdünya Ticarət Təşkilatının tələblərinə uyğunlaşdırılması üzrə Tədbirlər Planı" təsdiq edilmiş, burada mallarla ticarətə təsir göstərən siyasətə dair və ticarətlə bağlı əqli mülkiyyət rejiminin tənzimlənməsinə dair tədbirlər yer almışdır.

Ölkə Prezidentinin 1 fevral 2007-ci il tarixli 1925 nömrəli digər sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası gömrük sisteminin 2007-2011-ci illərdə inkişafına dair Dövlət Proqramı"na, eləcə də ölkə başçısının 11 noyabr 2008-ci il tarixli 12 nömrəli fərmanına əsasən, Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında "bir pəncərə" prinsipinin tətbiqi ilə gömrük inzibatçılığı keyfiyyətcə yeni səviyyəyə qaldırılmışdır. Məhz bunun nəticəsində gömrük qanunvericiliyinin hüquqi bazası təkmilləşdirilmiş, onun maddi-texniki təminatı yaxşılaşmış və gömrük orqanlarının səmərəli fəaliyyətinə əlverişli şərait yaranmışdır.

"Bir pəncərə" prinsipinin tətbiqi iqtisadi operator və sahibkarlıq subyektləri üçün resurslardan daha səmərəli istifadə olunmasını, rəsmiləşdirmə müddətinin azaldılması nəticəsində malların göndəriş və idxalına icazələrin alınması prosedurunun sürətlənməsini, sərhəd keçid prosedurları ilə bağlı tələblər haqqında məlumatlılığın və şəffaflığın artırılmasını, qurumlararası əməkdaşlığın gücləndirilməsini, eləcə də ticarət əlaqələrinin genişləndirilməsini təmin etmişdir.

Ötən 20 il ərzində gömrük nəzarəti metodlarının beynəlxalq standartlara uyğunlaşdırılması, gömrük prosedurlarının elektronlaşdırılması, qaçaqmalçılığa və gömrük işi sahəsində digər hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi, gömrük rəsmiləşdirilməsi infrastrukturunun inkişaf etdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi daim diqqət mərkəzində saxlanılmışdır.

2003-cü ildə Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatı Regional Tədris Mərkəzi və Kinoloji Mərkəz istifadəyə verilmişdir. 2006-cı ildə Dövlət Gömrük Komitəsində İnformasiya-Sorğu Mərkəzi və müasir Server Xidməti istifadəyə verilmiş, 2011-ci ildə isə ÜGT-nin Bakı şəhərində Potensialın Gücləndirilməsi üzrə Avropa Regional ofisi açılmışdır. 2014-cü ildə Hava Nəqliyyatında Baş Gömrük İdarəsində "Hədəf" Mərkəzi fəaliyyətə başlamışdır.

Gömrük qanunvericiliyinin təkmilləşdirilməsi sahəsində "Gömrük prosedurlarının sadələşdirilməsi və hormonizə edilməsinə dair Kioto Konvensiyası"nın müddəaları nəzərə alınmaqla hazırlanmış yeni Gömrük Məcəlləsi qəbul edildikdən sonra Azərbaycan Respublikasının Xarici İqtisadi Fəaliyyətinin Mal Nomenklaturası (XİF MN) daha da təkmilləşdirilmiş, gömrük sisteminin rəqəmsallaşdırılması geniş vüsət almışdır.

Dövlət başçısı məmur-vətəndaş təmasının minimuma endirilməsini, elektron gömrük xidmətlərinin sayının və çeşidinin artırılmasını, bəyannamələrin elektron formada qəbulunu, müvafiq sahələrdə ayrı-ayrı dövlət orqanları ilə məlumat mübadiləsinin elektron qaydada həyata keçirilməsini, gömrük nəzarətinin səmərəliliyinin artırılmasını gömrük orqanları üçün bir vəzifə olaraq müəyyən etmişdir. Eyni zamanda gömrük sistemində mövcud olan texnologiya və avadanlıqlardan istifadə etməklə gömrük risklərinin avtomatlaşdırılmış idarəetmə sistemini təkmilləşdirməsi, beynəlxalq təcrübədə qəbul olunmuş və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilmiş ekvivalentlik prinsipinə uyğun olaraq ixracatçı ölkə tərəfindən əvvəlcədən verilən baytarlıq, fitosanitar, gigiyenik, mənşə və digər sertifikatları (şəhadətnamələri) əsasında malların gömrük sərhədindən sürətli keçidinə şərait yaradılması və aidiyyəti dövlət orqanlarının bu barədə elektron formada məlumatlandırılması, vaxt itkisinin aradan qaldırılması məqsədilə qısa idxal bəyannaməsinin və mülki dövriyyəsi məhdudlaşdırılmış malların dövriyyəsinə verilən xüsusi icazənin əvvəlcədən yoxlanılması da həlli vacib məsələlər kimi müəyyən edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart 2016-cı il tarixli, 1853 nömrəli və "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" 16 mart 2016-cı il tarixli, 1897 nömrəli sərəncamlarına və digər hüquqi aktlara uyğun olaraq malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi və elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi məqsədilə "Yaşıl dəhliz", eləcə də beynəlxalq təcrübədə mövcud olan digər buraxılış sistemlərinin yaradılmasının təmin edilməsi ilə bağlı və digər istiqamətlərdə bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Belə ki, bu sərəncamla dövlət sərhədinin buraxılış məntəqələrinin buraxılış qabiliyyətini artırmaq, vətəndaşların rahatlığını və məmnuniyyətini təmin etmək üçün malların və nəqliyyat vasitələrinin yoxlanmasında "bir pəncərə" prinsipinin daha da təkmilləşdirilməsi, idxal-ixrac əməliyyatları üzrə gömrük rəsmiləşdirilməsinin sadələşdirilməsi istiqamətində işin beynəlxalq standartlara uyğun aparılması, müasir normativ hüquqi bazanın yaradılması, ticarətin asanlaşdırılması, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi, ölkədə sahibkarlığın inkişafında və biznes mühitinin formalaşmasında, iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsində gömrük sisteminin rolunun daha da artırılması üçün bir sıra məqsədyönlü işlərin görülməsi mühüm vəzifə olaraq müəyyən edilmişdir.

Dövlət başçısının 21 may 2016-cı il tarixli 920 nömrəli fərmanı ilə "Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sistemlərindən istifadə Qaydaları" təsdiq olunmuşdur. Bu qaydaların məqsədi gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsi və məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişaf etdirilməsi, o cümlədən risk qiymətləndirilməsinin nəticələri əsasında, avtomatlaşdırılmış elektron informasiya sisteminin imkanlarından istifadə etməklə, yarana biləcək təhlükənin səviyyəsinin əvvəlcədən müəyyən edilməsi, gömrük nəzarətinin formalarının idxal-ixrac prosedurları üzrə tətbiqinin daha da optimallaşdırılmasından ibarət olmuşdur.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli, 427 nömrəli fərmanı ilə "Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası" təsdiq olunmuşdur. Bu qaydanın məqsədi idxal-ixrac əməliyyatlarında qanunvericiliyə riayət edən xarici ticarət iştirakçıları üçün daha əlverişli şərait yaratmaq, gömrük sərhədindən mal dövriyyəsinin sürətləndirilməsi yolu ilə ölkənin ixrac potensialını gücləndirmək, Ümumdünya Gömrük Təşkilatının tövsiyələrinə və beynəlxalq təcrübələrə uyğun olaraq xarici ticarət iştirakçılarında könüllü riayət mədəniyyətini formalaşdırmaq, gömrük nəzarəti formalarını risk qiymətləndirilməsi əsasında tətbiq etmək, malların və nəqliyyat vasitələrinin gömrük rəsmiləşdirilməsi zamanı gömrük nəzarətini daha çevik və şəffaf həyata keçirmək, idxal-ixrac əməliyyatlarında məmur-sahibkar münasibətlərini müasir idarəçilik prinsipləri əsasında qurmaqdır.

Bu gün Azərbaycanın gömrük xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı uğurla mübarizə aparır.

Müstəqil Azərbaycan dövləti beynəlxalq münasibətlər məkanında mövqelərini durmadan möhkəmləndirir. Bu kursu öz fəaliyyətində rəhbər tutan gömrük orqanları gömrük işi sahəsində beynəlxalq miqyasda əməkdaşlığın möhkəmləndirilməsində və inkişaf etdirilməsində var qüvvəsi ilə çalışır. Azərbaycan Respublikasının gömrük orqanları tərəfindən digər dövlətlərin gömrük xidmətləri, eləcə də beynəlxalq və xarici təşkilatlarla əməkdaşlığa və qarşılıqlı yardımın inkişafı və möhkəmləndirilməsinə yönəlmiş, gömrük işi sahəsində əməkdaşlığın genişləndirilməsini nəzərdə tutan 130-dan çox sənədlər imzalanmışdır. Ölkəmiz bir sıra mötəbər gömrük tədbirlərinə evsahibliyi etmişdir.

Azərbaycan Gömrük xidməti respublikamızın iqtisadi inkişafına təkan verməklə, ölkənin iqtisadi qüdrətinin artırılmasında, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasında Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan iqtisadi siyasətin uğurla həyata keçirilməsi, təxirəsalınmaz vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarını sərf edir.

Müasir dövrdə Azərbaycan gömrük xidməti mükəmməl hüquqi bazaya, inkişaf etmiş infrastruktura malik olmaqla ölkənin quru, hava və dəniz yollarında respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur, qaçaqmalçılığa qarşı uğurla mübarizə aparır.

Büdcə daxilolmalarında xüsusi payı olan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi fiskal sahədə qarşıya qoyulmuş vəzifə və tapşırıqları yüksək səviyyədə yerinə yetirmək məqsədilə müəyyən edilmiş büdcə öhdəliklərini uğurla icra edir. Belə ki, cari ilin 9 ayı ərzində gömrük orqanlarının xətti ilə 4 milyard 392,78 milyon manat proqnoza qarşı 4 milyard 706,61 milyon manat olmaqla, 318,82 milyon manat artıq vəsaitin gömrük orqanları tərəfindən dövlət büdcəsinə köçürülməsi təmin edilmiş və 9 aylıq büdcə öhdəliyi 107,14 faiz yerinə yetirilmişdir.

Beynəlxalq ticarət-təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi, ticarətin asanlaşdırılmasına şərait yaradılması məqsədilə gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin gömrük ərazisinə daxil olması, oradan çıxması və tranziti ilə bağlı əldə edilən məlumatların başqa ölkələrin gömrük və digər səlahiyyətli dövlət orqanları ilə elektron informasiya mübadiləsini təmin etmək gömrük orqanlarının hal-hazırda həyata keçirdiyi strateji hədəflərdəndir.

Belə ki, Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə yaradılan Transxəzər Beynəlxalq Orta Dəhliz Tranzit Portalı ölkə ərazisindən keçən tranzit daşımalara rəqəmsal dəstək mexanizmidir.

Xarici ticarətin gömrük statistikasını beynəlxalq təcrübəyə və standartlara uyğun inkişaf etdirilməsi, onun düzgünlüyünü və operativliyini təmin etmək məqsədilə xarici iqtisadi fəaliyyətin mal nomenklaturasında malların növlərə görə ətraflı təsvir edilməsi, xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının təfsiri üzrə beynəlxalq şərhlərin (qeydlərin) gömrük işində tətbiqini təmin edən mexanizmlərin, məcburi qərarlar sisteminin tətbiqi, habelə gömrük risklərinin müasir metod və alətlərlə (süni intellekt) idarə olunması sisteminin yaradılması gömrük orqanlarının əldə etdiyi son nailiyyətlərdəndir.

Əldə olunan nailiyyətlərlə kifayətlənməyən gömrük orqanları bilirlər ki, İkinci Qarabağ müharibəsi zəfərindən yaranan böyük geosiyasi və iqtisadi imkanların, müasir dövrdə baş verən qlobal dəyişikliklərin ölkəmizin xarici ticarət əlaqələrinə və tranzit imkanlarına etdiyi təsir gömrük orqanlarından çevik və müasir çağırışlara cavab verən həllər tələb edir. Ənənəvi tərəfdaş ölkələrlə ticarətdə yaranan yeni imkanlar həm də yeni risklər yaradır. Bu ziddiyyətli iqtisadi platforma gömrük işinin təkmilləşdirilməsini və bütün təhdidlərə hazır olmağı tələb edir. İxracın, xüsusilə qeyri-neft sektorunun ixracının stimullaşdırılması, idxaləvəzedici məhsulların yerli istehsalının təşviq olunması, qanunvericiliklə gömrük orqanlarına həvalə edilmiş milli və iqtisadi təhlükəsizlik tədbirlərinin icrası gömrük orqanlarının üzərinə bir sıra yeni vəzifələrin yerinə yetirilməsi tələbini qoyur (smart (ağıllı). Bunlar gömrük sərhəd-buraxılış modellərinin tətbiq edilməsi, gömrük qanunvericiliyinə könüllü riayət edən xarici ticarət iştirakçıları üçün üstün hüquqları ehtiva edən mexanizmlərin yaradılması, korrupsiyanı istisna edən, cinayət tərkibli əməllərdən çəkinməyə sövq edən, dürüstlüyü təbliğ edən təlim və maarifləndirici tədbirlərin həyata keçirilməsi və s.

*Ölkəmizdə həyata keçirilən irimiqyaslı iqtisadi islahatlarda Dövlət Gömrük Komitəsinə həvalə edilmiş vəzifələrin vaxtında və keyfiyyətlə icrasına nail olmaq məqsədilə gömrük orqanlarının fəaliyyətində şəffaflıq səviyyəsinin yüksəldilməsini, sahibkarlıq subyektlərinin, vətəndaşların və gömrük əməkdaşlarının məmnuniyyətini, büdcə daxilolmalarında gömrük ödənişlərinin dayanıqlılığını, rəqəmsal gömrük sisteminin yaradılmasını, güclü və güvənli hüquq-mühafizə tədbirlərini özünə strateji hədəf müəyyən edən gömrük orqanları cənab Prezidentin müəyyən etdiyi daxili və xarici siyasətin uğurla həyata keçirilməsini yüksək peşəkarlıqla icra edəcəklər.*

**Şahin BAĞIROV,**
***Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri***